*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 5 mart 2016-cı il | № 17 (2032) | Qiymәti 25 qəpik


# Müdafiə naziri Meksikanın ölkəmizdəki səfiri ilə görüşüb

***Martın 3-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xuan Rodrigo Labardini Floreslə görüşüb.***

Regiondakı hərbi-siyasi şərait barədə qonağa məlumat verən Müdafiə naziri Ermənistanın təcavüzü nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün vəziyyətini diqqətə çatdırıb. Nazir Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini, bunun nəticəsində sülh prosesinin yubandığını və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərdiyini xüsusi qeyd edib.

Görüşdə Azərbaycanla Meksika arasında əlaqələrin hazırkı vəziyyəti, hərbi əməkdaşlığın perspekivləri müzakirə edilib və müdafiə sahəsində tərəfləri maraqlandıran məsələlərə dair fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



*Ön xətdən reportaj*

# Vətənə sipər oğullar

Yaxşı yadımdadır, müharibə dövründə kəşfiyyatçıların önündə istehkamçılar gedərdi. Ümumiyyətlə, əməliyyat hazırlananda birinci onlar öz tapşırıqlarını alar, işlərini görərdilər. Həmişə öndə getdiklərinə görə onları əvvəllər ordunun pionerləri də adlandırıblar. Müharibədən sonra da istehkamçılar həmişə döyüşə yaxın şəraitdə çalışıblar. Ona görə bu peşənin sahiblərinə xüsusi rəğbətim olub. Bu dəfə ordumuzun cəfakeş döyüşçüləri barədə qeydlər götürmək üçün cəbhə bölgəsinə yollandım.

Elə bil, axşamdan bu yerlərə çökmüş çən hələ çəkilməyib. Qurğuşun kimi dumanın 100 metr qabağı görünməz etdiyi fevral havasında əməlli-başlı sazaq duyulur. Suyuşirin əsgərin idarə etdiyi UAZ aramla hərbi maşınların torpaq yolda saldığı izlə bizi yüksəkliklərə doğru aparır. Nəhayət, bir qədər qabaqda hərbi texnikanın köməyilə yaradılmış hündür torpaq sipər görünür. İstehkam işləri görən döyüşçülərin yanında dayanırıq.

Doğrudan, burada istehkamçıların gördüyü tədbirlər adamı heyrətə gətirir. Şəxsi heyətin mühafizəsi üçün bölmənin həndəvərinə torpaqdan sanki divar ucaldılıb. Bu da təbiidir. Müharibə hələ bitməyib, atəşkəsi düşmən tez-tez pozur. Şəxsi heyəti isə qorumaq başlıca şərtdir.

Zabit Rəhim Əliyev bizi mehriban qarşılayır və köhnə tanışlar kimi salamlaşırıq. Görünür, çöldə-bayırda çox çalışdığından sifətini sanki günəş qaraldıb. Yanındakı gənc zabitə görülən işlə bağlı tapşırıq verdikdən sonra bizi təcrübəli mütəxəssis hələ tam istifadəyə verilməmiş yeni binadakı otağa dəvət edir.

Silahlı Qüvvələrimizin cəfakeş mühəndisləri olmuş "batya" ləqəbli Soltan Bəndəliyev, şirin gülüşü yaddan çıxmayan Fərman Qasımov, basketbolçular qədər ucaboylu Ramiz Zralov kimi bacarıqlı mühəndislər haqqında vaxtilə yazılar hazırlamışdım. Amma işinin peşəkarı olan zabit Rəhim Əliyevin barəsində çox eşitsəm də, indiyədək onu görməmişdim. Və ilk andan peşəkar hərbi mühəndis məndə xoş təsir bağışlayır.

- Bilirsiz, orduda hərbçilər üçün ən başlıcası nədir? - zabit birdən soruşur və cavabını da özü verir: - Peşəkarlıq. Mühəndis-istehkamçılar üçün isə bu daha vacibdir. Belə bir deyim var ki, istehkamçılar yalnız bir dəfə səhvə yol verirlər. Bu yanlışı etməmək üçün gərək peşənin sirlərini mükəmməl biləsən. Bu gün bizim mütəxəssislər öz vəzifələrinə məsuliyyətlə yanaşırlar.

- Bizim mütəxəssislər ön xətdə də əziyyət çəkib xeyli iş görüblər, - həmsöhbətim deyir. - İndi gedərsiz, orada sədd və səngərlərin mühəndis təchizatı ilə bağlı yaradılmış şəraiti öz gözlərinizlə görərsiniz.

Çox keçmir, bizə bələdçilik edəcək zabit Samir Ələkbərov otağa daxil olur və biz yubanmadan onunla yolumuza davam edirik.

Zabit Samir Ələkbərov da mühəndisdir, Silahlı Qüvvələrimizdə uzun müddətdir ki, xidmət edir. Gündüzü-gecəsi bu bölgələrdə keçir.

- Orduda mühəndis xidmətinin köməyi olmadan hücum əməliyyatları aparmaq, etibarlı müdafiə olunmaq mümkün deyil, - zabit gözlərini dolanbac yoldan çəkmədən deyir. - Hər zaman öndə gedən, ilk addımı atan bölmələrdən biri bizimkilərdir. İstehkamçı ayağını basmayan əraziyə kəşfiyyatçılar da, piyadalar da getmirlər. İlin istənilən vaxtında mühəndis bölmələrinin fəaliyyəti olmadan bu yerlərdə keçinmək mümkün deyil.

**(Ardı 2-ci səhifədə)**



Mətbuat nümayəndələri Müdafiə Nazirliyinin Mərkəzi Əşya Bazasında və Ərzaq Anbarında oldular

3-cü səhifədə



Həkim insanlara günəş qədər lazımdır

4-cü səhifədə



Təbəssümünüz əskik olmasın

5-ci səhifədə



Əlahiddə Ümumqoşun Orduda daşqaldırma birinciliyi

8-ci səhifədə

# Müdafiə naziri Misirin ölkəmizdəki səfiri ilə görüşüb



***Martın 4-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Suzan Mohamed Gamil ilə görüşüb.***

Müdafiə naziri Azərbaycan ilə Misir arasında mövcud ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin dövlətlərimizin maraqlarına uyğun olaraq daim inkişaf etdiyini və genişləndiyini qeyd edib. Nazir regiondakı hərbi-siyasi vəziyyətlə bağlı məlumat verərək Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərdiyini diqqətə çatdırıb.

Görüşdə, yaxın vaxtlarda Misir Ərəb Respublikasının güc strukturlarının geniş tərkibli nümayəndə heyətinin ölkəmizə gözlənilən səfəri, keçiriləcək danışıqlarda təhlükəsizlik və müdafiə sahəsində müzakirələrə dair tərəfləri maraqlandıran məsələlərlə bağlı fikir mübadiləsi də aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 mart 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 120 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Mərzili, Yusifcanlı, Novruzlu, Cəvahirli, Sarıcalı, Şuraabad, Kəngərli, Qaraqaşlı, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 125 dəfə atəş zərbəsi endirib.

## Ermənistan silahlı qüvvələrinin növbəti təxribatının qarşısı alınıb

Martın 3-dən 4-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-təxribat qrupu qoşunların təmas xəttində mövqelərimizə yaxınlaşaraq ərazini minalamağa cəhd göstərib.

Silahlı Qüvvələrimizin bölmələrinin əvvəlcədən düşməni aşkar etməsi, görülən qabaqlayıcı tədbirlər və qarşı tərəfə atəş gücü vasitəsilə təsirdən sonra düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Hadisə yerində düşmənə məxsus iki ədəd mina, iki ədəd qumbara və istifadə etmək istədikləri qana bulaşmış ləvazimatlar aşkar olunub.

Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib.

*Ordu və cəmiyyət*

# Gördüklərim qəlbimi dağa döndərdi



Vətənin keşiyində dayanmaq hər bir kişinin müqəddəs vəzifəsidir. Bütün Azərbaycan vətəndaşları yetkinlik yaşına çatdıqda əsgəri borcunu verməlidir. Mənim də oğlum bu ilin yanvarında hərbi xidmətə çağırıldı. Öyüd-nəsihət verib onu elimizin-obamızın adətilə hərbi xidmətə yola saldıq.

Fevralın 14-də xidmət etdiyi hərbi hissədə andiçmə mərasimi keçirilirdi və biz də sevinc hissilə oğlumun əsgəri bayramında iştirak etmək üçün Gəncə şəhərinə yollandıq.

Qarabağ müharibəsinin iştirakçısıyam, hərbi əməliyyatlar zamanı sağlamlığımı itirmişəm. O zaman müstəqil Azərbaycanın ordusu yeni formalaşırdı. Ən başlıcası isə Qarabağı ələ keçirməyə çalışan Ermənistanın silahlı birləşmələrinə qarşı döyüşlər aparılırdı. Həmin illərdə ordunun təminatı ilə bağlı çoxlu problemlər vardı. Bəlkə də cəbhədəki uğursuzluqların bir səbəbi də bu idi.

Son illərdə Silahlı Qüvvələrimizin xeyli güclənməsi, müasir silah və texnika ilə təchiz edilməsi ilə bağlı çox eşitmişdim. Amma atalar demişkən: yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır.

Andiçmə mərasimi yüksək səviyyədə keçdi. Gənc əsgərlər cərgə ilə düzülmüş, üstünə silahlar qoyulmuş stolların ətrafında dayanıb Azərbaycana sədaqət andını qəbul etdilər. Səliqəli geyinmiş əsgər balaların unudulmaz bayramı bir valideyn kimi qəlbimi dağa döndərdi.

Andiçmə mərasimindən sonra hərbi hissə komandanlığı əsgərlərlə görüşmək, onların məişət şəraitilə tanış olmaq üçün bizə şərait yaratmışdı. Hər bir əsgər valideyni üçün oğlunun xidmət şəraiti ilə tanış olmaq istəyi təbiidir. Hərbi hissədə gördüklərim ürəyimdən oldu.

Azərbaycan əsgərlərinin nümunəvi xidməti üçün yaradılmış yüksək şəraitə görə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova və hərbi hissə komandanlığına bir valideyn olaraq öz dərin minnətdarlığımı bildirirəm. Azərbaycan Silahlı Qüvvələrinə isə işğal edilmiş torpaqlarımızın azad edilməsi naminə qələbə arzu edirəm.

**İbadulla DAVUDOV,**
**Zaqatala rayonu,**
**Muxax kəndi**



# Vətənə sipər oğullar

**(Əvvəli 1-ci səhifədə)**

Yolboyu bizi ön xəttə aparan avtomobil hündür torpaq sipərlərin yanından keçir. Sanki baxışlarımdakı sualı oxuyurmuş kimi zabit deyir:

- Bu ərazilər düşmən mövqelərindən müşahidə olunur. Ermənilər bu yerləri tez-tez atəşə tuturlar. Ona görə şəxsi heyətin təhlükəsiz hərəkətini təmin etmək üçün hərbi texnikanın köməyilə bu sipərləri ucaltmışıq.

Maşın təpənin yamacına çatıb dayanır və biz düşüb öncə burada döyüş növbəsi aparan bölmənin şəxsi heyətilə tanış oluruq. Sonra yuxarıya səngərlərə doğru qalxırıq.

- Hazırda mühəndis bölmələri düşmənlə təmas xəttində sədd və səngərlərin təkmilləşdirilməsi ilə məşğuldur, - zabit Əfəndiyev deyir. - Bu işlər əsasən gecə vaxtlarında yerinə yetirilir.

Zabit Əfəndiyev və burada döyüş növbəsi aparan bölmənin komandiri Vüsal Bayramovla birlikdə postlara qalxdıq, səngərləri və sədləri gəzdik. Gördük ki, ön xətdə, doğrudan da, ürəkaçan dəyişikliklər baş verib, sədd və səngərlərimiz daşla hörülüb. Atəş nöqtələri, postlarımız dəmir-beton vasitələrlə möhkəmləndirilib ki, düşmən atəşkəsi pozarkən şəxsi heyətə xətər yetirə bilməsin.

Biz bir qədər irəli gedib, necə deyərlər, istehkamçıları iş başında yaxaladıq. Zabit Elşən Qarayev də yeni tikilmiş sığınacağın girişini əsgərlərilə birgə möhkəmləndirməklə məşğul idi.

- Düşmən öz xislətinə sadiqdir, tez-tez mövqelərimizi atəşə tutur, - zabit Qarayev bildirir. - Səngərlər, sığınacaqlar möhkəm olanda döyüşçülərimiz postlarında ürəklə, inamla dayanırlar. İstehkam qurğularını dəmir-beton materiallardan inşa edirik ki, düşmənin mərmiləri təsir göstərə bilməsin.

Burada çalışan fədakar istehkamçılarımızın hər biri düşmən çəpəridir. Bu oğullar Azərbaycanımızın keşiyində dayananların mühafizəsi üçün çalışırlar. Onlar burada sədd və səngərlərimizi alınmaz qalaya çeviriblər. Vətənimiz üçün sipər yaradıblar. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Pərviz Babaşov, Kamil Şıxmuradov, Qismət Qurbanov, Famil Rzayev, Nahid Aydınov gördükləri işə yetərincə məsuliyyətlə yanaşırlar. Onların düşmənin beş addımlığında işgüzar ovqatla çalışması o qədər xoşuma gəlir ki!

Gecə-gündüz demədən ön xətdə istehkam işlərini fədakarlıqla yerinə yetirən istehkamçılardan leytenant Təbriz Həmidovun taqımını da qeyd etməyə dəyər.

Zabit Həmidov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetirməsidir. Ali təhsil zamanı qazandığı biliklər burada köməyinə gəlir. Öz vəzifəsini məsuliyyətlə yerinə yetirir, peşəkarlığını daim artırmağa çalışır.

Əslində ön xətdə görülən bütün istehkam tədbirləri şəxsi heyətin mühafizəsini təşkil etmək naminə aparılır. Amma bütünlüklə Silahlı Qüvvələrimizin qarşısında duran başlıca vəzifə hələ irəlidədir - işğal altında qalmış torpaqlarımızı düşmənin caynağından xilas etmək. O zaman istehkamçılarımız bu sədd və səngərləri aşacaq, ordumuzun Ağdama, Xankəndiyə, Laçına, Şuşaya, Kəlbəcərə... doğru irəliləməsi üçün zəmin yaradacaqlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Mətbuat nümayəndələri Müdafiə Nazirliyinin Mərkəzi Əşya Bazasında və Ərzaq Anbarında olublar

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, şəxsi heyətin təchizat, təminat və sosial-məişət şəraitinin yaxşılaşdırılması, o cümlədən əşya-əmlak, ərzaq, təzə tərəvəz və digər kənd təsərrüfatı məhsulları ilə təminatını gücləndirmək məqsədilə hərbi hissə və obyektlərdə müxtəlif tədbirlər görülür.***





AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, martın 2-də kütləvi informasiya vasitələrinin nümayəndələri Müdafiə Nazirliyinin Mərkəzi Əşya Bazasında və Mərkəzi Ərzaq Anbarında yaradılan şəraitlə tanış olublar.

Qeyd edilib ki, belə bazalar cəbhəyanı bölgələrdə də fəaliyyət göstərir və müxtəlif istiqamətlərdə yerləşən hərbi hissələrin şəxsi heyətinin təminatını tam ödəyir.

Əvvəlcə Mərkəzi Əşya Bazasındakı hamam-camaşırxana kombinatının fəaliyyəti ilə tanış olan KİV nümayəndələri burada yaradılan şəraitlə maraqlanıb və işçilərlə söhbət ediblər.

Müdafiə Nazirliyinin idarə rəisi polkovnik Münasib Babayev bildirib ki, burada hərbi qulluqçular üçün müasir tələblərə cavab verən camaşırxana xidməti təşkil edilir. Camaşırların yuyulması, qurudulması, ütülənməsi və polietilen steril paketlərdə qablaşdırılaraq hərbi hissələrə çatdırılması yüksək səviyyədə həyata keçirilir. Eyni zamanda, stasionar və çöl şəraitində yerləşən hərbi hissələrdə də hamam-camaşırxana və məişət otaqlarının avadanlığının yenilənməsi istiqamətində müvafiq işlər görülür.

Sonra jurnalistlər Silahlı Qüvvələrin şəxsi heyətinin təminatı üçün nəzərdə tutulmuş



əşya əmlakının etalon nümunələrinə baxıblar. Hərbi qulluqçuların yay və qış mövsümü üçün alt və üst geyim formaları rahatlığı, keyfiyyəti ilə seçilir. Bundan əlavə, pilot variantda hazırlanan və hərbi hissələrdə istənilən iqlim şəraitində sınaqdan keçirilən yeni formalar yüksək keyfiyyəti və davamlılığı ilə fərqlənir.

Hərbi qulluqçuların yataq şəraitinin yaxşılaşdırılması məqsədilə köhnə əsgər çarpayıları müasir tipli bir və ikimərtəbəli çarpayılarla, pambıq yataq dəstləri yaylı döşək, sintepon balış və akril ədyallarla, kiçik həcmli dolabçaların isə metal dolablarla əvəzlənməsi həyata keçirilir. İplik əl-üz dəsmalları xovlu olanlarla dəyişdirilir. Şəxsi heyətin hərbi geyim və əşya əmlakı ilə təminatı normalarına hamam və ayaq dəsmalları da əlavə olunub.

Media nümayəndələri əşya əmlakının müayinəsi və keyfiyyətinə nəzarət laboratoriyasının fəaliyyəti ilə də tanış olublar. Qeyd edilib ki, dövlət standartları, normativ texniki, əsas şərtlər toplusu və digər rəhbəredici sənədlər əsas tutularaq laboratoriyada şəxsi heyət üçün tədarük olunan bütün növ əşya əmlakının fiziki və mexaniki göstəricilərinin sınağı aparılır.

Mərkəzi Ərzaq Anbarı haqqında ümumi məlumat əldə etdikdən sonra KİV nümayəndələri laboratoriyanın fəaliyyəti ilə maraqlanıblar. Laboratoriyada Silahlı Qüvvələrin şəxsi heyəti tərəfindən qəbul edilən bitki, heyvan və qeyri-üzvi mənşəli ərzaq məsullarının orqanoleptik, texniki, fiziki-kimyəvi, bakterioloji müayinəsi həyata keçirilir. Ərzaq məhsullarının qida üçün tam yararlı olmasına və keyfiyyət standartlarına uyğun gəlməsinə nəzarət edilir.

Media nümayəndələri hər biri min tonluq quru ərzaq və tərəvəz məhsulları saxlancları, eləcə də tez xarab olan ərzaq, ət və balıq məsulları üçün soyuducu-saxlanclarda da olublar. Bildirilib ki, Silahlı Qüvvələrin şəxsi heyətinin ilboyu təzə və yüksək kalorili ərzaq ilə təmin olunması məqsədilə yenidən yaradılan yardımçı təsərrüfatlardan toplanan kənd təsərrüfatı məhsulları təminatı gücləndirmək üçün hərbi hissələrə verilir.

Hərbi hissələrin yeməkxanalarında aşpazların və digər işçilərin mülki şəxslərlə əvəz olunması hazırlanan xörəklərin və görülən işlərin keyfiyyətinə müsbət təsirini göstərib. Hərbi hissələr yeməkxanamətbəx avadanlığı, o cümlədən ətçəkən, tərəvəzdoğrayan və kartoftəmizləyən maşınlar, elektrik tavaları, elektrik və qaz plitələri ilə təmin edilib. Hazırda yeməkxanalarda keyfiyyətli milli yeməklərin bişirilməsinə diqqət daha da artırılıb.





Məlumat verilib ki, stasionar şəraitdə yerləşən hərbi hissələrdən fərqli olaraq, relyefinə görə daşıma yolları çətin olan və yüksək dağ şəraitində yerləşən hərbi hissələrin şəxsi heyəti konservləşdirilmiş milli yeməklərlə təmin edilir. Bir nəfər üçün bir porsiyası 500-550 qramlıq tərəvəzli, yarmalı və tərəvəzli-yarmalı ət və sous şorbaları, 360-380 qramlıq badımcan, bibər, pomidor, kələm, qarışıq dolmalar və küftələr hazırlanıb. Bundan əlavə, içməli su mənbəyi olmayan yerlərdə xidmət edən, eləcə də döyüş növbətçiliyi aparan hərbi qulluqçuların fiziki sağlamlığının qorunması məqsədilə gün ərzində bir nəfər üçün yeməklərin hazırlanmasına 2.5 litr, içmək üçün isə yay mövsümündə iki, qış mövsümündə bir litr qablaşdırılmış su verilir.

Silahlı Qüvvələrin hərbi qulluqçularının səhra şəraitində quru ərzaq payı dəsti çeşidinin və qida rasionunun enerji dəyərinin artırılması məqsədilə ərzaq payı normalarına 150 qram ciyər paşteti və 100 qram qatılaşdırılmış şəkərli süd əlavə edilib.

Tanışlıqdan sonra media nümayəndələri üçün əsgər naharı təşkil olunub. Jurnalistlər hazırda əsgərlərin ərzaq payı normalarına daxil olan qida məhsullarının dadına baxıblar.

Martın 20-də Novruz bayramı münasibətilə bütün hərbi hissələrdə keçirilməsi planlaşdırılan "Açıq qapı" günündə də əsgərlərin valideynləri və yaxınları üçün hərbi qulluqçularımızın qida rasionuna daxil olan ərzaqdan nahar təşkil ediləcək.

# Silahlı Qüvvələrin Hərbi Akademiyası ilə Azərbaycan Texniki Universiteti arasında memorandum imzalanıb




***Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyası ilə Azərbaycan Texniki Universiteti arasında elmi-texniki və təhsil sahəsində əməkdaşlığa dair memorandum imzalanıb.***

Tərəflər peşə, ixtisas və bilik səviyyələrinin daim artırılmasının zəruriliyi və Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nı əsas tutaraq, peşə və ixtisaslar üzrə optimal təhsil sisteminin mərhələli tənzimlənməsi, bu məsələlər üzrə memorandum münasibətlərinin yaradılması barədə razılığa gəliblər.

Memorandumda qeyd edilir ki, yüksək hərbi elmi potensiala malik zabit kadrların hazırlanmasını təmin etmək, gələcək hərbi mütəxəssislərin biliklərinin artırılmasına istiqamətləndirilmiş və təhsil üzrə proqramlar sahəsində qarşılıqlı maraq doğuran əməkdaşlıq həyata keçiriləcəkdir.

İmzalanmış sənəddə müasir tələblərə cavab verən yüksək ixtisaslı elmi, elmi-pedaqoji bilik və təcrübəyə malik hərbi mütəxəssislərin hazırlanması, qabaqcıl elmi üsul və texnologiyaların inkişafı sahəsində yeni elmi materialların öyrənilməsi, informasiya və təcrübə mübadiləsi keçirilməsi, hərbi mütəxəssislərin elmi və təhsil proqramına uyğun təcrübəyə yiyələnməsi, birgə beynəlxalq və regional elmi konfransların təşkili, nəzəri və praktiki elmi-tədqiqat işlərinin qrant şəklində aparılmasının zəruriliyi nəzərə çatdırılır.




Memorandumu Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev və Azərbaycan Texniki Universitetinin rektoru, professor Havar Məmmədov imzalayıb.

Sonda Azərbaycan Texniki Universitetində ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə yaradılmış zal ziyarət edilib, kafedra və laboratoriyalara baş çəkilib, professor-müəllim heyəti və tələbələrlə söhbət edilərək gələcək birgə əməkdaşlıq məsələləri müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# NATO-nun mobil qrupu tərəfindən təlim kursu keçirilib

***NATO-nun Quru Qoşunları İzmir komandanlığının mobil təlim qrupu tərəfindən Bakıda "NATO standartlarına uyğun kəşfiyyatla tanışlıq" mövzusunda kurs təşkil edilib.***



Təlim kursu Dövlət Təhlükəsizliyi Xidmətinin Beynəlxalq Antiterror Təlim Mərkəzində Müdafiə Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin nümayəndələrinin birgə iştirakı ilə keçirilib.

İştirakçılara operativ və taktiki səviyyədə "Döyüş sahəsinin hazırlığı", "Məlumatların toplanılması, təhlili və ötürülməsi" və digər mövzularda mühazirələr təqdim olunub, eləcə də praktiki vərdişlərin artırılması məqsədilə sülhməramlı əməliyyatlar ssenarisinə uyğun komanda-qərargah məşqləri keçirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



*Tibb xidməti*

# Həkim insanlara günəş qədər lazımdır

Həkim peşəsi ən nəcib və məsuliyyətli peşələrdən biridir. İnsanların sağlamlığının keşiyində dayanmağı özünə həyat amalı bilən həkimlər şəfa bəxş etdikləri xəstələrinin qəlbində əbədi yaşayırlar.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalının oftalmologiya bölməsinin ordinatoru, tanınmış göz cərrahı Gülnarə Süleymanova da 22 ildir ki, insanların həyatında heç nə ilə əvəz edilməyən, onlara Allah tərəfindən bəxş edilən nurun keşiyində dayanıb. Gülnarə xanımla görüşüb söhbətləşəndə, onun nurlu siması, həyat eşqi məndə könül xoşluğu yaratdı.

Uşaqlıqdan ən böyük arzusu olub həkim olmaq. Bu sənətin böyük məsuliyyət tələb etdiyini də elə erkən yaşlarından dərk edib. Daim insanlara kömək etmək, ən çətin anlarında əllərindən tutub ayağa qaldırmaq istəyi gətirib onu bu sənətə. Amma bu istəyin özəyində elə bir ideal dayanırdı ki, onun Azərbaycanın səhiyyəsinə bəxş etdiyi töhfələr unudulmazdır. Əziz xatirəsi milyonlarla insanın qəlbində yaşayan, görkəmli elm fədaisi Zərifə xanım Əliyeva, sözün həqiqi mənasında, onun idealı olub. Zərifə xanımın işıqlı çöhrəsi və həkimi günəşə bənzədərək dediyi: "Həkim insanlara günəş qədər lazımdır" sözləri düşüncələrinə əbədi hakim kəsilib.

- Geniş dünyagörüşü, yüksək ziyalılığı, tədqiqatçılıq bacarığı ilə hamının rəğbətini qazanmış Zərifə Əliyevanın mənalı ömür yolu hər bir azərbaycanlı, elm adamı və tibb işçisi üçün əsl həyat və mənəviyyat nümunəsidir, - deyir həmsöhbətim. - Azərbaycan tibb elminin, xüsusilə onun oftalmologiya sahəsinin inkişafında müstəsna xidmətləri olan Zərifə xanımın şəfalı əlləri ilə minlərlə xəstə müalicə olunub. Görkəmli alim bu gün də idealımdır və onun nurlu obrazı həmişə mənim ürəyimdədir.

Gülnarə xanım söhbət əsnasında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bir neçə il əvvəl Baş Klinik Hospitalda, həmçinin onların bölməsində olmasından fəxrlə danışır. Hazırda bölmənin ən müasir tibbi avadanlıqlarla təchiz edildiyini, maddi-texniki təminatın yüksək səviyyədə olduğunu və qayğıkeş tibb kollektivi ilə formalaşdığını bildirir. Hərbçilərə, onların ailə üzvlərinə və mülki vətəndaşlara yüksək səviyyədə tibbi xidmətin təşkil edildiyini qeyd edir.

Gülnarə xanım əsl xoşbəxtliyi xəstələrinə yaşatdığı sevincdə görür. Dünya işığını bir daha görməyəcəyi qorxusunu yaşayan insanların bir neçə dəqiqə ərzində bu qorxudan qurtulub yaşadıqları sevinci heç bir hisslə




əvəz etmək mümkün deyil.

Əlbəttə, bəzən kiçik bir səhvin, ehtiyatsızlığın böyük bir faciəyə yol aça biləcəyini düşünən həkim tibb elminin sirlərinə mükəmməl yiyələnməli, müasir tibbi cihazlarla işləməyi bacarmalı və ən əsası isə məsuliyyətli olmalıdır. Daim öz təcrübəsini artırmaq həvəsində olan Gülnarə həkim Türkiyə, İngiltərə, İspaniya, Avstriya, Polşa və s. onlarla ölkədə keçirilən konfranslarda, simpoziumlarda iştirak edib.

Tanışlıq zamanı öyrənirəm ki, müsahibim məsuliyyətli bir həkim olmaqla yanaşı, həm də qayğıkeş insan, övladlarına gözəl tərbiyə verən mehriban anadır. Elə buna görə də əksər xəstələri olan əsgərlərə, hərbçilərə sadəcə həkim deyil, həm də ana, bacı qayğısını əsirgəmir.

Bölmənin təcrübəli tibb bacılarından olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Mehparə Namazova illərdir çiyin-çiyinə çalışdığı təcrübəli həkim haqqında deyir ki, Gülnarə xanım daim xəstələrinə öz doğması kimi can yandırır. "Xəstənin həkimə inamı uğurlu müalicəyə bərabərdir. O, hər bir xəstəsi ilə mehriban, səmimi rəftarına görə insanların yaddaşında yer tutur".

Allah insanlara öz nurunu onların gözlərində bəxş elədi. Və insanların da ən böyük arzusu bu oldu: "Allahım, ölən günədək məni gözlərimin nurundan məhrum etmə". Bəlkə də elə buna görədir ki, gözlər heç zaman yalan söyləməz, qəlbindəki bütün hisslərini sözsüz-söhbətsiz, səssiz-səmirsiz anladar və bütöv bir ömrü bir baxışda nəql edər. İnsanlarda bu nuru qoruyan həkimləri isə mən Gülnarə xanım timsalında sadəcə xeyirxah bir insan kimi görmürəm. Onlar yer üzünün mələkləridir. İnsanlara nur paylayan mələklər...

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

*8 Mart Beynəlxalq Qadınlar Günüdür*

# Təbəssümünüz əskik olmasın

***Bu gün qadınlar da mülki, yaxud hərbi vəzifələrdə bizimlə bir sırada xidmət edirlər. Hərbi sahəyə xas olan çətinliklər onların da zərif çiyinlərinə düşür. Azərbaycan qadınının hünərindən, qəhrəmanlığından indiyə qədər çox yazılıb. Heç uzağa getməyək, elə Qarabağ müharibəsində Vətənimizin ərazi bütövlüyünün qorunması naminə fədakarlıqlara imza atmış nə qədər cəsur qadınlarımız olub. 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində sıralarımızda xidmət edən qadınların bir qrupu ilə görüşüb söhbət etdik, onların ürək sözlərini dinlədik.***





Yaşadığımız cəmiyyətdə elə bir sahə yoxdur ki, orada qadın əməyi olmasın. Mürəkkəb peşə sahibləri olan hərbçilər arasında da zərif cinsin nümayəndələrinə daim rast gəlinib. Tarixən qadınların qoçaqlığı, mərdliyi diqqət çəkib. Atalar yaxşı deyib: aslanın erkəyi-dişisi olmaz. Qəhrəman qadınlarımız xalqımızın qürur mənbəyidir.

Bu gün ordumuzda kişilərlə çiyin-çiyinə xidmət edən mərd, qoçaq qadınlarımız az deyil. 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində Silahlı Qüvvələrimizdə çalışan xanım hərbi qulluqçularımıza, təbii ki, qəzetimizin tək bir sayında yer ayırmaq mümkün deyil.

Təlim və Tədris Mərkəzində polkovnik-leytenant Elvin Əzizovla qadın hərbçilərimizlə görüşmək istəyimi bildirəndə qeyd etdi ki, burada müxtəlif vəzifələrdə qadın hərbi qulluqçular xidmət edirlər. Rütbəsindən və vəzifəsindən asılı olmayaraq onların hər biri üzərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəlir.

O, xidmətdə fərqlənən xanım hərbçilərdən kapitan Günel Zeynalovanın və baş əsgər Nəcabət Hüseynovanın adlarını qeyd etdi.

**Kapitan Günel Məmmədəli qızı Zeynalova** peşəkar zabitdir. O, 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Müxtəlif vəzifələrdə xidmət edən Günel xanım hazırda şəxsi heyətin uçotu üzrə bölmə rəisinin baş köməkçisidir. Xanım zabit deyir ki, hərbi peşəyə marağı ailədə yaranıb. Atası hərbçi olub. Orta məktəbi bitirəndə zabit peşəsini seçməyi qərara alıb.

Günel xanıma görə, qadın hərbi qulluqçuların üzərinə böyük məsuliyyət düşür. "Əyninə hərbi forma geyinməklə hərbçi olmaq mümkün deyil. Bunun üçün hərbi nizamnamələri bilməli, onun tələblərinə ciddi əməl etməli və bir hərbi qulluqçu kimi vəzifənin öhdəsindən layiqincə gəlməlisən".

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Nəcabət İslam qızı Hüseynova** isə iki ilə yaxındır hərbi xidmətdədir. Təminat taborunda baş yazar vəzifəsində xidmət edən xanım hərbçi deyir ki, ordu sıralarında xidmət etmək onun da başlıca amalı olub. Ali təhsil aldıqdan sonra ilk iş üçün müraciət etdiyi yer məhz Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi olub.

- İlk gündən hərbi nizamnamələri öyrənməyə başladım, - deyir Nəcabət xanım. - Hərbçi ailəsində böyüdüyüm üçün bir çox qayda-qanunları bilirdim. Buna baxmayaraq qısa müddətdə kurs keçib hərbi xidmətə başlamaq çətin idi. Artıq o həyəcanlı anların arxada qalıb. İndi üzərimə düşən vəzifəmin öhdəsindən bacarıqla gəlirəm.

**Mayor Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

***Bu gün C.Naxçıvanski adına Hərbi Liseydə xanım əməkdaşlar da çalışırlar. Onların arasında həm mülki işçilər, həm də hərbi qulluqçular vardır. Ordumuzun peşəkar zabit potensialını möhkəmləndirən bu təhsil ocağında dərs deyən müəllim heyətinin onlarla xanım nümayəndəsi vəzifə borcunu layiqincə yerinə yetirir, pedaqoji fəaliyyətlərini məsuliyyətlə həyata keçirir. Onların hər birinin xoşniyyətli əməlləri bu gün göz önündədir.***



**Kursantlara konstitusiya fənnini öyrədən Naibə Şəmşiyeva** bu təhsil ocağında 12 ildir çalışır. 1997-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu (hazırkı Prezident yanında İdarəçilik Akademiyası - L.H.) bitirib. Siyasi elmlər üzrə magistr pilləsində təhsilini başa vurub. Naibə xanım Hərbi Liseyə gəlməmişdən öncə müxtəlif idarəetmə strukturlarında işləyib. Amma hazırda taleyini bağladığı bu hərbi təhsil ocağı ona çox əzizdir.

Onunla söhbətimiz səmimi alınır. Deyir ki, dünən dərs dediyi kursantlar bu gün artıq Silahlı Qüvvələrimizin sıralarında xidmət edən peşəkar zabitlərdir. "Mən hər biri ilə qürurlanıram. Ona görə ki, onlara ölkəmizin konstitusiyası haqqında elmi-nəzəri bilgilər aşılamışam".

Ölkəmizdə tədrisin müasir səviyyədə qurulduğunu söyləyən N.Şəmşiyeva gələcəyin zabit heyətinə torpağa, Vətənə sevginin sirlərini öyrətdiyini və dövlətçilik ənənələrimizdən tarixi bilgilər çatdırdığını qeyd edir. Naibə müəllimə, həmçinin kursantlara Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin döyüş yolları barədə danışır, ata-babalarımızın qəhrəmanlıq ənənələrindən, sərkərdəlik tariximizdən ətraflı söhbət açır. Həmsöhbətim qeyd edir ki, ulu öndər Heydər Əliyevin yaratdığı və övladıtək sevdiyi bu təhsil ocağını hər il neçə-neçə kursant bitirib, ali hərbi məktəbə daxil olur. "Bu gün hər bir Azərbaycan vətəndaşının ən böyük arzusu işğal olunmuş ərazilərimizin düşməndən azad olunmasıdır. Mən əminəm ki, bu günün kursantları sabah Vətənin müdafiəsində möhkəm dayanacaq və torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazır olacaqlar".

Növbəti həmsöhbətim isə **Hərbi Liseyin kadrlar bölməsinin kargüzarı, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Luiza Paşayevadır.** Luiza xanım artıq 11 ilə yaxındır ki, Hərbi Liseydə çalışır. O əvvəlcə burada mülki işçi vəzifəsində işləyib, sonra müqavilələli hərbi xidmətə çağırılıb. İşində məsuliyyətli olan Luiza xanım



kadrlar bölməsində sənədləşmə işini mükəmməl öyrənib. O, Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat bölməsinin məzunudur. Azərbaycan dilinin qrammatik qaydalarını dərindən öyrənib. İki oğul anası olan hərbçi xanım övladlarını da bu müqəddəs peşəyə yönəldəcəyini söyləyir. Onları bir ana olaraq gələcəyin zabitləri kimi görmək arzusundadır. Hər gün rastlaşdığı kursantlar ona hərbçi anası olacağı hissləri aşılayır və bu arzularla yaşayır.

**Zərnişan Məmmədova** 9 ildir ki, Hərbi Liseyin yeməkxanasında bir aşpaz kimi doğma övladları qədər sevdiyi kursantların xidmətindədir. Zərnişan xanım deyir ki, mənim də bir övladım zabitdir. "Kursantlara öz övladım kimi qayğı göstərirəm. Onların arzuladıqları xörəkləri hazırlamaq bir ana kimi mənə rahatlıq verir. İşimdən zövq alıram. Bir gün işə çıxmayanda elə bil ki, darıxıram. Fikirləşirəm ki, görəsən, bu gün kursantların qulluğunda necə durdular. Azərbaycan kulinariyasında hansı yemək varsa, onu mətbəximizdə hazırlayırıq. Aş, dolma,



dovğa, ərişdə, küftə kursantların ən çox xoşladıqları xörəklərdir. Xalqımızın əziz bayram günlərində masaların üzərinə növbənöv şirniyyatlar düzür, ləziz və təamlı xörəklər hazırlayırıq. Sabah Vətənimizin keşiyində dayanacaq zabitlərimizin qulluğunda dayanmaq bir azərbaycanlı anası olaraq mənə qürur verir".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

**P.S.** *Ölməz şairimiz Səməd Vurğun yazırdı ki, "adın şərəflidir sənin, ey qadın, dahilər anası çağrılır adın". Doğrudan da, ana dünyaya insan bəxş edən müqəddəs varlıqdır. Tək 8 Mart ərəfəsində yox, hər gün, hər an analarımızı düşünür, onları ehtiramla yad edirik. Qəzetimizin kollektivi adından Silahlı Qüvvələrimizdə çalışan, xidmət edən bütün xanımlarımızı 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə ürəkdən təbrik edir və hər birinə ən xoş arzularımızı bildiririk.*

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Ədəbiyyatımızda Qarabağ müharibəsi mövzusu

## Oxucular maraqlı əsərlər gözləyirlər

Ədəbiyyat mövzu baxımından çəmənzara bənzəyir. Yazı adamının seçim etməsi üçün həyatda, təbiətdə istənilən qədər çeşid var. Hər mövzu öz formasında, öz üslubunda doğulur. Mövzular öz geyimində çox əsrarəngiz görsənir. Rəngarənglik təbiətdə də gözəldir, ədəbiyyatda da. Baxdıqca zövq alırsan, oxuduqca könül xoşluğu tapırsan. Yaşamağa, yazıb yaratmağa həvəsin artır. Gələcəyə böyük ümidlərlə baxırsan, arzulara inamla boylanırsan. Mənalarla dolu həyat səni qırılmaz tellərlə özünə bağlayır. Qarşında böyük perspektivlər açılır, həyat və yaradıcılıq yollarına gur işıq düşür.

Ədəbiyyat mövzu sarıdan heç vaxt korluq çəkməyib. Həyatı bədii surətdə əks etdirən əsərlərin yazılması üçün yaradıcılıq meydanı geniş və hüdudsuzdur. Qələm adamı oxu kamana qoyub istədiyi mövzunun səmtinə ata bilər. Əsas odur ki, hədəfi dəqiq vurmaq üçün istedadı yetərli olsun. Yaradıcı insanlar sənət yollarında ilk kövrək addımlarını atdıqca zaman-zaman ədəbiyyata yeni nəfəs, yeni rəng, yeni çalar gətirirlər.

Müharibə və sevgi ədəbiyyatın şah mövzularıdır desək, yəqin ki, səhv etmərik. İkisi bir əsərdə birləşəndə isə dünyanın şedevrləri yaranır. Bəzi oxucular müharibənin özünü də, bu mövzuya güzgü tutan əsərləri də daim maraq dairələrində saxlayırlar. Bu marağın, bu həvəsin işığı heç vaxt sönmür. Deməli, illər, əsrlər keçsə də, müharibə mövzusu yaradıcılıq üçün həmişə aktual olaraq qalır. Görəsən, müharibənin ağrı-acılarından bəhs edən hekayə, povest və romanların maraqla qarşılanmasının sirri, sehri nədədir? Nədən zamanından asılı olmadan insanların bu mövzuya marağı azalmır? Oxucuları müharibə ədəbiyyatına çəkən nədir, hansı hiss və duyğulardır?

Maraq təkcə bədii əsərlərə deyil, müharibədən bəhs edən filmlərə də baxmaqdan doymursan. Ona təkrar-təkrar, özü də həvəslə tamaşa edirsən. Hər dəfə baxanda da nə isə bir yenilik tapırsan. Bunu əvvəllər seyr edəndə görmədiyinə təəccüblənib təəssüflənirsən. Bu filmlərdən igidlik, cəsurluq öyrənirsən, hisslərin coşanda bir anlıq özünü qəhrəmanın yerində hiss edirsən. Oxuduğun əsərlər, baxdığın filmlər səni həyatda qarşılaşacağın çətinliklərlə mübarizəyə alışdırır, möhkəmlənirsən, mətinləşirsən.

Müharibə sözünü dilə gətirəndə, ilk olaraq gözlərimiz önündə qanlı döyüşlər canlanır, qulaqlarımızda top-tüfəng gurultusu, zirehli texnikaların nəriltisi əks-səda verir. Hərdən "Müharibə nədir" sualına cavab axtarırsan? Bir az ritorik səslənən bu suala qısaca cavab verməli olsaq, yəqin ki, "Müharibə qan-qada, ölüm-itim, acı göz yaşları, ah-nalə, insanların talelərini, arzularını yarıda kəsən, doğmaları birbirinə həmişəlik həsrət qoyan gözəgörünməz bir qüvvə, dağılmış kəndlər, viran olmuş şəhərlər deməkdir" söylərdik.

Mübariz ruhlu məşhur ispan şairi və dramaturqu Qarsiya Lorka isə "Müharibə doğma bətnlərdə yad toxum deməkdir" - yazıb. Müharibə gücün, zorun son həddidir, əsəblərin gərildiyi, səbrin daraldığı, təkndiyi, sülh danışıqlarının, gərgin mübahisə və müzakirələrin uğursuzluqla başa çatdığı son nöqtədir. Amma yaşanan tarix güzgü kimi göstərir ki, amansız və qanlı müharibə münaqişələri yoluna qoymaq üçün heç də yetərli vasitə deyil. Dünyaca məşhur olan rus yazıçısı L.Tolstoy necə də gözəl yazıb: "Diplomatların həll etmədiyi bir məsələ barıtla, qanla da həll olunmaz".

İnsanların danışan dilləri susandan və sülhə, razılığa gedən yollar möhkəm-möhkəm bağlanandan sonra artıq barmaqlar tətiyi sıxır. Silahlar gurlayır, atəş səsləri bir anda hər tərəfi lərzəyə gətirir. Səmada quş kimi uçuşan odlu-alovlu mərmilər yeri-göyü yandırır. Günahsız adamların qanı tökülür, ömürlər qırılır, evlər uçurulur, şəhərlər, kəndlər dağıdılır, dünya nizamından çıxır, insanlığın faciəsi başlayır...

Son vaxtlar neçə illərdən bəri ağrı-acısını yaşadığımız Qarabağ müharibəsinin ədəbiyyatda öz əksini necə tapması barədə bəzi mətbuat səhifələrində müzakirələr aparılır, indiyə qədər yazılan bədii əsərlər təhlil olunur. Müzakirələr zamanı yaradıcı adamlar mövzu barədə fikirlərini bölüşür, mülahizələrini söyləyir, rəylərini bildirir, təkliflərini verirlər. Nəticədə ortaya maraqlı fikirlər çıxır, yeni qapılar açılır, təzə yolların üfüqləri görsənir. Son nəticədə sanki qarşımızda bir-birinə bənzəməyən rəylər, fikirlər mənzərəsi açılır.

Söylənilən fikirlərə rəğmən qeyd edək ki, doğrudan da, Qarabağ müharibəsi ədəbiyyatda öz inikasını çox ləng tapır. Bir anlıq geri dönüb ötən illərə boylananda görürsən ki, müharibənin başlandığı günlərdən bizi xeyli zaman məsafəsi ayırır. Düzdür, ötən vaxt ədəbiyyat üçün boş-boşuna keçməyib, bu istiqamətdə nəzərə çarpacaq bəzi işlər görülüb. Qarabağ müharibəsi mövzusunda bir çox publisistik, bədii və sənədli əsərlər yazılıb, kitablar çap olunub. Müharibənin ağrı-acısını özündə əks etdirən bədii və sənədli filmlər çəkilib. Amma sanki bütün bunlar oxucunu qane etmir. Bəzi əsərlərdə müharibə tam dolğunluğu ilə əks olunmur. Azərbaycan əsgərinin, Azərbaycan döyüşçüsünün obrazı əzəmətli, əhatəli görsənmir. Elə bil bir az zəiflik, solğunluq nəzərə çarpır. Bu gün oxucular şair və yazıçılardan Qarabağ müharibəsindən, onun gedişindən, məğlubiyyətimizin səbəblərindən, torpaqlarımızın nədən və niyə itirilməsindən, həmçinin işğal olunmuş ərazilərimizin hansı yollarla geri qaytarılacağının mümkünlüyündən bəhs edən əsərlər gözləyir.

Əslində Qarabağ müharibəsi ədəbiyyat üçün başdan-ayağa mövzudur. Amansız müharibə indiyə qədər minlərin, milyonların ürəyinə dağ çəkib. Bala dağı, ata dağı, bacı dağı, qardaş dağı, torpaq dağı... Müharibənin hər bir günü, hər bir anı ədəbiyyat üçün mövzu ola bilər. Döyüşçünün silahlanması, irəli atılması, atəş açması, yaralanmış silahdaşını xilas etməsi və s. ayrı-ayrılıqda hərəsi bir əsərə mövzudur. Bir şərtlə ki, müharibə mövzusunda yazan müəllif yetərincə dərin müşahidələr aparsın. Təsvirlərində dəqiq olsun, yanlışlığa yol verməsin. Əgər bunu bacarmasa, onun yazdığı əsər bayağı alınacaq, həqiqəti əks etdirmək gücündə olmayacaq.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Təchizat yüksək olanda...

## Maddi-texniki təminat bölməsindən qeydlər



***Hərbi xidmət elə sahələrdəndir ki, günün istənilən vaxtında yuxarı komandanlıqdan tapşırıq gələ bilər. Və hər kəs verilən göstərişi yerinə yetirməyə hazır olmalıdır. Bu təkcə bilavasitə döyüş hazırlığı ilə məşğul olan bölmələrə aid deyil. Kəşfiyyat, mühəndis-istehkam, artilleriya, motoatıcı bölmələrlə yanaşı, təminat bölmələri də istənilən vaxtda səfərə hazır olmalıdır.***

"N" hərbi hissəsinə gələndə səhərin erkən çağlarıydı, hava hələ işıqlaşmamışdı. Bir-birinin ardınca yük maşınları nəzarət-buraxılış məntəqəsindən çıxıb yola düzəlirdi.

- Bizim bölməmiz təkcə silah və texnikanın təmirilə məşğul olmur, eyni zamanda təminat işlərini də həyata keçirir, - zabit Azər Ağayev bizimlə söhbətində dedi. - Həmin avtomobillər də hərbi hissələr üçün lazım olan məmulatların daşınması üçün göndərildi.

Maddi-texniki təminat taborunun şəxsi heyəti də ordumuzun döyüş potensialının artırılmasında az rol oynamır. Günün nizam qaydalarına uyğun olaraq, səhər yerbəyerindən sonra hər manqa, hər əsgər öz işilə məşğul olur. Və təbii ki, bütün bu işgüzarlığın önündə kollektivdəki sağlam atmosfer, mənəvi-psixoloji hazırlıq dayanır.

Taborun təmirçiləri birlik nəzdindəki hissə və bölmələrdə silah, zirehli texnika və avtomobillərin təmiri və bərpasını həyata keçirir. Hər hansı bir bölmədən sifariş daxil olan kimi dərhal mobil təmir qrupu həmin ünvana yola düşür. Hər bir tankın, PDM-in, maşının işlək olması bölmənin döyüş hazırlığına öz təsirini göstərir. Ona görə təmir qrupu qısa zamanda silah və texnikanı bərpa edib sıraya qoymağa çalışır.

Yerində təmir etmək mümkün olmadıqda isə sıradan çıxmış hərbi texnika tabora gətirilir və burada sazlanır. Əvvəlki illərdən fərqli olaraq indi təminatla bağlı heç bir problem yoxdur.

Təmirçilərin öz vəzifələrini yetərincə bilməsi işlərini keyfiyyətlə yerinə yetirməyə imkan verir. Hərbi hissədə bildirdilər ki, hələ indiyədək görülən işlərlə bağlı tabor rəhbərliyinə şikayət və ya irad daxil olmayıb. Görülən işlərin yekununda akt tərtib edilir, silah və texnika saz vəziyyətdə təhvil alınır. Hətta işlər yüksək səviyyədə icra edildiyinə görə dəfələrlə təmirçilərin mükafatlandırılması üçün hərbi hissə komandanlığına təklif göndərilib.

- Bölməmizdə öz işini mükəmməl bilən mütəxəssislər çoxdur, - zabit Famil Həmidov deyir. - Zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə yanaşı, mülki mütəxəssislər də hərbi hissələrdə aparılan təmir və bərpa işlərinə cəlb edilirlər.



Taborun bacarıqlı mütəxəssislərinin adlarını soruşduqda qərargahda kapitan Elman Əkbərovun, baş leytenant Cavid Mirzəyevin, gizirlərdən Emil İbadovun, Faruq İbadovun, Bəhruz Məmmədovun, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Vüqar Şumalovun, Pərviz Məmmədovun, Emin Həsənovun, Elməddin Məmmədovun adlarını qeyd etdilər.

Hələ hərbi hissədə olarkən gizir Emil İbadovun rəhbəri olduğu mobil təmir qrupunun da çıxışa hazırlandığını gördük.

- Tank bölmələrimizin birində zirehli texnikanın mühərrik hissəsində problem yaranıb, - zabit Azər Ağayev bildirdi. - Onun təmirilə bağlı sifariş almışıq. Gizir İbadovun qrupu hazırda oraya yola düşür.

Bir azdan həmin qrup nəzarət-buraxılış məntəqəsindən çıxır. Hərbi hissədə aldığım qənaət belə düşünməyimə əsas verdi ki, qısa zamanda avtomobil saz vəziyyətə gətiriləcək və sıraya qoyulacaq.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

Publisistik düşüncələr

# Şəklin sözü - sözün şəkli

**Şeir səmavilikdi. Varsa, şeirin musiqiliyini duymaq çətin deyil. Sözlə musiqinin vəhdəti daha emosional, daha təsirli, daha düşündürücü olur. Nizami Gəncəvinin "Sənsiz"i Üzeyir Hacıbəyovun musiqi yozumunda ilahi qüdrət qazandı, Füzulinin "Məni candan usandırdı..." qəzəli Vasif Adıgözəlovun "Füzuli" kantatasıyla bəşəri mahiyyətin işığına döndü,...**



Söz anlayan, sözün mahiyyətini, sözlərin düzümünün aşıladığı məfkurəni dərk eləyən bilir ki, hərəsi bir ovqatın söz açarı olan bayatılar könül mülkümüzün şəriksiz sultanıdı.

Sözün işığı görünmür - sezilir, hiss edilir. Bayatılardan süzülən, hiss edilən işıq da səmavi işıqdı. Vətənə ad olan bayatıların işığı daha cazibədardı, daha nurludu. Bu işıq deyir ki, sevin Vətəni, Vətən həsrətini yaşantılarınıza hopdurun, gecənizə-gündüzünüzə üzərlik eləyin. Vətən naminə şəhid olmağı da bacarmaq gərək...

Belə bayatılarımız Vətən sevgisinin düsturudu...

*Burda yolum oldu tən,*
*Varmı bu yoldan ötən?!*
*Bu dünyada ən şirin,*
*Bir anadır, bir Vətən!*

Bu bayatının hiss edilən musiqiliyini Emin Sabitoğlu duyub, kövrək, düşündürücü musiqi yazıb eyni mətləbli bir neçə bayatıya. "Vətən bayatıları"dı bu melodik manifestin adı. Dinləyənin ürəyi uçunur Vətənə görə; qürur var, ehtiram var bayatılarda da, musiqidə də.

Kütləvi vətənpərvərlik tədbirlərinin birində - Azərbaycan Respublikası Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin 15 illiyinə həsr olunmuş tədbirdə ssenari müəllifi - Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin bədii təxəyyülü ruhumuzun əzəli-əbədi ünvanına - Vətənə həm də bu mahnının işığından baxılmasını istəyibmiş, arzulayıbmış, tövsiyə edibmiş. Nədi bu istəyin, arzunun, tövsiyənin mahiyyəti? - Vətən sevgisidi. Bu, tamaşaçılara (deməli, ictimaiyyətə!) necə çatdırıldı?..

Əsgər hər an "Canım Vətənə qurbandı!" - deyir...

Şəhidlərimizin ruhu "Canımı Vətənə qurban elədim!" - deyir...

Yaralı əsgər tərəddüd eləmədən Vətən üçün yaşanılan ömrün lazım gələrsə, şəhidliyə ad edilə-cəyinə də inandırır bizi.

Tədbirdə yaralı əsgərin ifasında səsləndi "Vətən bayatıları".

"Burda yolum oldu tən" - misrası da, "Varmı bu yoldan ötən?!" - sorğusu da böyük bir mətləbin ifadəsidi, şübhəsiz.

*Bu dünyada ən şirin,*
*Bir anadır, bir Vətən!*

"Vətən bayatıları" məhz bu iki misranın bəşəri işığında daha əzəmətli görünür, duyulur, hiss edilir.

"Ana Vətən!" deyirdi yaralı əsgər. Yaralarının giziltisini-sızıltısını hiss etmirdi elə bil...

Sözün, musiqinin, rejissuranın vəhdəti bir mətləbin harayçısına dönmüşdü: ən şirin kəlamımız Vətəndi! Xidmətdə də, yaralansaq da! Son nəfəsimizəcən!..

Bir anın Vətən ünvanlı şəkil yaddaşı da sözün, musiqinin, rejissuranın vəhdətiylə bizə bunları deyir. Xalqın bədii təfəkkürüylə, musiqi diliylə (Emin Sabitoğlu), rejissura təqdimatıyla (Abdulla Qurbani)...

Sözün şəklini görmək, şəklin sözünü eşitmək qüdrətinin şükranlığı duyğulu insanlara nəsib olur. Sözün görünməli şəklini təqdim eləmək (Emin Sabitoğlu bunu bacardı), şəklin eşidilməli sözünü təqdim eləmək (Abdulla Qurbani bunu bacardı) də qüdrətdi...

Sözsüz səsi duymaq gərək, sözsüz səsi eşitmək gərək, sözün şəklini görmək gərək. Vətənə görə, Vətən üçün, vətənləşmək üçün...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Pakistanın Şimali Vəziristan əyalətində 12 terrorçu məhv edilib



Pakistanın Hərbi Hava Qüvvələri Şimali Vəziristan əyalətinin Şavval yaşayış məntəqəsində məskunlaşan "Təhrik-e Taliban Pakistan" terrorçu qruplaşmasının azı 12 üzvünü məhv edib.

Hava zərbələri nəticəsində terrorçuların 3 sığınacağı da dağıdılıb. Öldürülənlər arasında Livandakı "Hizbullah" qruplaşmasının komandirlərindən biri də var.

### Bəşər Əsəd istefaya getmək niyyətində deyil



"Yalnız Suriya vətəndaşlarının kimin prezident olacağına dair qərar qəbul etmək hüququ vardır".

Bunu Suriya Prezidenti Bəşər Əsəd Almaniyanın ARD telekanalına müsahibəsində bəyan edib.

"Mən, təbii ki, istefaya getmək niyyətində deyiləm. Bu bizim işimiz, Suriyanın işidir. Mənim siyasi taleyim təkcə suriyalıların iradəsindən asılıdır", - deyə Suriya Prezidenti vurğulayıb.

### ABŞ-ın enerji nəhəngi "Halliburton" 5 min işçisini ixtisar edəcək



Dünyanın ən böyük enerji xidməti şirkətlərindən olan ABŞ-ın "Halliburton" şirkəti 5 min işçisini, işçi personalının təxminən 8 faizini ixtisar edəcək.

Şirkətin bu addımı atmasına səbəb neftin qiymətinin ucuzlaşmasıdır. "Halliburton" 2014-cü ildən bu vaxtadək işçi personalının təxminən 25 faizini - 22 min nəfəri ixtisar edib.

### Türkiyədən Kipr adasına içməli su verilməsi ilə bağlı anlaşma imzalanacaq



Türkiyə ilə Şimali Kipr arasında Kipr adasının şimal hissəsinin içməli su ilə təmin edilməsinə dair anlaşma sənədi imzalanacaq.

Türkiyə KİV-lərinin məlumatına görə, sənədim imzalanması Şimali Kiprin hökumət başçısı Ömer Soyer Kalyoncunun martın 2-də Ankaraya səfəri zamanı gerçəkləşəcək.

Xatırladaq ki, 2015-ci il oktyabrın 17-də Türkiyədən Şimali Kiprə çəkilmiş içməli su kəməri istifadəyə verilib. Türkiyə tərəfi hesab edir ki, müraciət ediləcəyi halda, bu sudan adanın yunanlar yaşayan hissəsinə də verilə bilər. Ümumilikdə 107 kilometr uzunluğu olan Alaköprü-Geçitköy içməli su boru xəttinin 80 kilometri dənizin dibi ilə çəkilib.

### Əmir Teymur və onun sərkərdələrinin bioqrafiyası araşdırılıb



Özbəkistan mətbuatı yazır ki, Rusiyanın Novosibirsk Dövlət Universitetinin mütəxəssisləri dünyada ilk dəfə olaraq Əmir Teymur fenomeni və onun 12 ən yaxşı sərkərdəsinin bioqrafiyasını ətraflı araşdırıblar.

Alimlər qrupunun rəhbəri Leonid Bobrov jurnalistlərə bildirib ki, Əmir Teymurun sərkərdələrini şərti olaraq 3 qrupa ayırmaq olar. Birinci qrupa böyük istedada malik sərkərdələri, ikinci qrupa vəzifəyə görə sərkərdə olanları - buraya Əmir Teymurun silahdaşlarının törəmələri olan hərbçiləri aid etmək olar. Bunlar vəzifələrini atalarından miras kimi alanlardır. Ən nəhayət, üçüncü qrupa, necə deyərlər, "anadangəlmə sərkərdələr" daxildir ki, bunlar da Əmir Teymurun varisləri olan şəxslərdir. Onları müharibələrə şəxsən Əmir Teymur özü hazırlaşdırıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici hərbi xronika



### "Sarmat" raketinin sınağı keçiriləcək

Yeni qitələrarası ballistik raketin ilk nümunəsinin sınağı bu ilin yazında həyata keçiriləcək. TASS-ın verdiyi məlumata görə, Krasnoyarsk maşınqayırma zavodunda raketin 100-ə qədər elementləri hazırlanıb və bu müəssisədə hazırda ayrı-ayrı hissə və xətlərinin sınağı davam etdirilir. TASS agentliyinin nümayəndəsinin açıqlamasına görə, yeni ballistik raketin silahlanmaya qəbul edilməsi 2018-ci ilin axırlarına nəzərdə tutulub.

Rusiya Müdafiə nazirinin müavini Yuri Borisovun bildirdiyinə görə, "Sarmat"ın əsas hissəsinin çəkisi on tona qədərdir və raket Şimal və Cənub qütbündən keçməklə hədəfləri məhv etməyə qadirdir.

### "Eytan" PDM-i

"Defense News"in verdiyi məlumata əsasən, İsrail sənayesi yeni nəsildən olan piyada döyüş maşınının istehsalını artıq başa çatdırıb. Təkərli "Eytan" piyada döyüş maşını köhnəlmiş M113 ZTR-ləri əvəz etmək üçün nəzərdə tutulub. Yeni döyüş maşını ağır "Namer", "Merkava" tankları və digər texnikalarla birlikdə hərəkət edəcək. Yeni maşının tam çəkisi 35 tondur. Cihazlanmasının tərkibinə distansion idarəolunan döyüş modulu, fəal müdafiə və rəqəmli idarəetmə sistemi daxildir.





### Yeni nəqliyyat gəmisi

Bu yaxınlarda "Bulava" ballistik raketlərinin daşınması üçün nəzərdə tutulmuş yeni "Akademik Kovalyov" dəniz silahlanma nəqliyyat gəmisinin sınağı həyata keçirilib. Bu haqda "Ulduz" gəmiqayırma zavodunun mətbuat xidmətinin rəhbəri Nadejda Şerbina məlumat verib. "Akademuk Kovalyov" gəmisi dəniz xilasetmə "Ulduz" dartıcısının bazası əsasında hazırlanıb və HDQ-nin yeni köməkçi gəmilər ailəsinin nümayəndəsi hesab olunur. Onun su basımı 6.3 min ton, sürəti 14 mil və heyəti 60 nəfər təşkil edir. Gəmi 120 tonluq yükqaldırma kranı ilə təchiz olunub.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Əlahiddə Ümumqoşun Orduda daşqaldırma birinciliyi





"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi ilə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları arasında daşqaldırma birinciliyi keçirilib. 60, 65, 70, 80, 90 və 90 kiloqramdan artıq olmaqla 6 çəki dərəcəsində təşkil olunan yarışda hər kəs daha əzmlə iştirak edərək birincilik uğrunda mübarizə aparıb.

Əlahiddə Ümumqoşun Ordunun Fiziki Hazırlıq və İdman rəisi mayor Vahid Məmmədovun rəhbərlik etdiyi daşqaldırma birinciliyində 60 kq çəki dərəcəsində əsgər Kamal Canməmmədov, 65 kq çəki dərəcəsində əsgər Elvin Abdurrəhmanov, 70 kq çəki dərəcəsində əsgər Məhərrəm Quliyev, 80 kq çəki dərəcəsində əsgər Nurəddin Buraqov, 90 kq çəki dərəcəsində əsgər Coşqun Əhmədov və 90 kq-dan yuxarı çəki dərəcəsində əsgər Əmrah Salmanov birinciliyin qalibi olublar.

İlk üçlüyə daxil olan qaliblər Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklarla mükafatlandırılıblar.

Təltifetmədən sonra qaliblərdən öz təəssüratlarını bölüşənlər də oldu. Əsgərlərdən Elvin Abdurrəhmanov, Coşqun Əhmədov və Əmrah Salmanov qeyd etdilər ki, həm fərdi, həm də komanda hesabında qalib gəliblər. Təbii ki, buna da ancaq yorulmaz məşqlərdən sonra nail ola biliblər.

Zabit Vüqar Mustafayev bildirdi ki, hədəfimiz birincilik olsa da, ikinci yerlə kifayətlənməli olduq. Əlbəttə ki, bu da yaxşı nəticədir. Növbəti yarışlara daha səylə hazırlaşacağıq ki, birinci yerin sahibi olaq.

Hərbi qulluqçular arasında keçirilən yarışların nəticəsidir ki, şəxsi heyət arasında qələbə uğrunda mübarizə ruhu formalaşıb.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

---

***Snayper və snayper tüfəngi haqda nə bilirik?***

***Əvvəlcə "snayper" sözünün mənasını izah etməyə ehtiyac duyuruq. Bu söz ilk dəfə Birinci Dünya müharibəsi dövründə Britaniya ordusunda işlənməyə başlayıb. "Snayp" ingilis sözüdür, sürətli və uçuş istiqamətini qəfil dəyişdiyinə görə ovlanması çətin olan bekas bataqlıq quşunun adıdır. Bu nazik və uzun dimdikli kiçik quşlar Azərbaycanda Şəki Dövlət Təbiət Yasaqlığında da yayılıb.***

Snayper xüsusi təlim keçilmiş, maskalanmağı, müşahidə aparmağı və sərrast atəş açmağı bacaran atıcıya deyilir. Bəzən snayper yox, snayperçi sözünü işlədənlər də olur. Bu, doğru deyil. Optik nişangahlı tüfənglə silahlanan atıcı adətən düşmənin komanda, rabitə heyətini, vacib hərəkət edən, açıq, peyda olan və ya maskalanmış tək hədəfini ilk atəşlə məhv etməyi bacarmalıdır.

Keçmiş SSRİ dövründə, indiki Rusiya və bir çox dünya ordularında, o cümlədən Azərbaycan Silahlı Qüvvələrində Draqunovun məşhur snayper tüfəngindən (SVD) geniş istifadə olunur.

1958-ci ildə Sovet Ordusu Baş Qərargahının Baş Raket-Artilleriya İdarəsi müasir snayper tüfənginin ixtirası ilə bağlı müsabiqə elan etmişdi. SSRİ Silahlı Qüvvələrinə möhkəm özüdoldurulan atəş uzaqlığına malik müasir atıcı silahın yaradılması tələbi qoyulmuşdu.

Yevgeni Draqunovun rəhbərliyilə konstruktorların hazırladığı silah müsabiqədə qalib gəlmişdi. SVD adlandırılan tüfəng 1963-cü ildən Sovet ordusunda silahlanmaya qəbul edilmişdi. Artıq 50 ildən çoxdur ki, SVD dünya ordularında öz taktiki-texniki xüsusiyyətlərinə görə ən yaxşı snayper tüfənglərindən biri kimi dəyərini saxlamaqdadır.

*Silahlar*

## 7.62 mm SVD snayper tüfəngi



Draqunovun özüdoldurulan snayper tüfəngi barıt enerjisinin istifadəsilə işləyir. Silahın darağı 10 - 7.62 millimetrlik 10 ədəd patron tutur. SVD-də polad özəkli, işıqsaçan və ya standart zirehdələn-yandırıcı güllələrə malik patronlardan istifadə edilir. Silah yüngül, qısa və texniki qulluq üçün münasib hesab edilir.

SVD-nin səmərəli atəş məsafəsi optik nişangahla 1300, mexaniki nişangahla 1200 metrdir. Düzünə atəş məsafəsi isə baş fiquruna 350, sinə fiquruna 430, qaçan fiqura isə 640 metrdir.

Mütəxəssislərin fikrincə, yaxşı hazırlığa malik snayper SVD-dən helikopterlərə və aşağı sürətli təyyarələrə də sərrast atəş aça bilər. Hərbi əməliyyatlar tarixində belə hallar olub. Salvador HHQ-yə məxsus təyyarəni 1989-cu ildə partizanlar SVD ilə vurub salmışdılar. İraqda isə bu silahla pilotsuz uçan aparatı zərərsizləşdirmişdilər.

**Hazırladı:**
**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

---

## Dağlıq Qarabağ münaqişəsinin yeganə həll yolu Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasıdır

Dağlıq Qarabağ münaqişəsinin yeganə həll yolu Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılmasıdır.

Azərbaycanın dinc əhalisinə qarşı amansızlığı və qəddarlığı ilə seçilən, cinayətlər törətmiş Seyran Ohanyanın, heç şübhəsiz, xarici auditoriya üçün ünvanladığı siyasi terminlərlə dolu növbəti boşboğazlığı Ermənistanın hərbi-siyasi rəhbərliyindəki şəxslərin tam məsuliyyətsizliyi, öz xalqının gələcəyini düşünməyən kəslərin riyakarlığı və ikiüzlülüyünü bir daha sübut edir.

Bunu Ermənistanın müdafiə naziri Seyran Ohanyanın cəbhədəki vəziyyət və münaqişənin həllinə bağlı fikirləri ilə əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

"Dağlıq Qarabağ münaqişəsinin yeganə həll yolu Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tamamilə, birdəfəlik və qeyd-şərtsiz çıxarılmasıdır. Məsələ ya Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməsilə həll olunmalıdır, ya da Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı qarşıya qoyulan tapşırıq Silahlı Qüvvələrimiz tərəfindən tam icra edilməklə işğalçılar torpaqlarımızdan qovulmalıdır", - deyə Müdafiə Nazirliyinin açıqlamasında diqqətə çatdırılıb.

## Qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 2-də Azərbaycan Respublikasının Ağdam rayonu ərazisindəki qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Peter Svedberq və Saymon Tiller keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Yevgeni Şarov nəzarət ediblər.


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Günay TAĞIYEVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 112 Nüsxə 4700 |